Puplaşma ayrı-ayrı oyuqlarda, barama içərisində gedir. Bu baramalar ağac ovuntularından düzəldilir. İyulun ortalarında böcəklər uçmağa başlayırlar. Bir nəslin inkişafı iki ilədək çəkir. Böcəyə dənizkənarı sahələrdə daha çox rast gəlinir. Kütləvi halda bir neçə ağacı sıradan çıxara bilirlər, ağac məhv olmaqdan başqa öz tərkibini itirir və tamam yararsız hala düşür. 7 növ entomofaqı aşkar edilmişdir (Cədvəl 1). Azərbaycanda Şəki-Zaqatala, Quba-Xaçmaz, Gəncə-Daşkəsən, Dağlıq Qarabağ, Naxçıvan MR və Lənkəran vilayətində yayılmışdır (Самедов, 1963).

Dünyada Cənubi Avropada, Asiyada, Ukraynada, Qafqazda yayılmışdır (Медведев, 1974).

6. Alp rozaliyası – *Rosalia alpina* L. (*Cerambycidae*). Nadir və nəsli kəsilməkdə olan növ kimi "Qırmızı kitaba" salınıb. Abşeronun meyvə və meşə sahələrində yerə yıxılmış və qurumuş ağacların gövdəsi üzərində rast gəlinir. İnkişafı qovaq, fıstıq, çinar, söyüd, palıd və meyvə ağaclarının gövdəsində gedir. Sürfə mərhələsində zərər verir. Hər 5 ağacdan 3-də onun sürfələrinə rast gəlmək olur. Sürfələr sağlam və sağlam olmayan ağacların gövdəsi ilə qidalanmaqla bütün yaş dövrlərini orada keçirirlər və orada da puplaşırlar. İyul-avqust aylarında böcəklər uçmağa başlayırlar. İlk günlər onlar ağacların gövdəsi üzərində gün düşən tərəfdə sakit vəziyyətdə olurlar. Bu vaxt onları asanlıqla tutmaq olur. Böcəklərin cütləşməsi günəşli havada daha əlverişli keçir. 3-4-gündən sonra yumurtalarını ağacların qabığı altına və yarıqlarına qoyur. 12-14 gündən sonra yumurtalardan sürfələr çıxır. 4 növ təbii düşməni qeydə alınmışdır (Cədvəl). Azərbaycanda Şəki-Zaqatala bölgəsinin İsmayıllı rayonunun meşə sahəsində qovaq ağacının gövdəsi üzərindən (1 ədəd imaqo) iyun ayında Z.M. Məmmədov və b. (1997) tərəfindən əldə edilmişdir.

Cədvəl 1. Abşeron yarımadasında ağaclara zərərverən ksilofaqlar və onların entomofaqları

Say №si	KSILOFAQLAR	ENTOMOFAQLAR									
		Parazitlər								Yırtıcılar	
		Xorides irriqator F.	*Scambus terebrans* Ratz.*	*İtoplectis alternans* Grav.	*Atanycolus initiator* Nees.	*Doructes undulatus* Ratz.	*Coeloides abdominalis* Zett.	*Scolis maculatsa* Dr.*	*Tachyta nana* Gyll.*	*Nudobius umbratus* Motsch.	*Thanasimus formicarius* L.
1	2	3	4	5	6	7	8	9	10	11	12
1	Maral böcək – *Lucanus cerrus* L.**	-	-	-	-	-	+	+	-	-	+
2	Kərgədan böcək – *Oructes nasicornis* L.	-	+	-	-	-	-	+	+	-	+
3	Boz rəngli qızılböcək – *Capnodis tenebricosa* Hbst.	+			+		+		+	+	
4	İkirəngli qızılböcək – *Anthaxia bicolor* F.**	+	-	+	-	-	+	-	-		+
5	Fıstıq diserçası – *Dicerca berolinensis* Hbst.*	+	+	-	+	+	-	-	-	+	+
6	Dənəvərbığlı uzunbığ – *Megopis scabricornis* Scop.	+	+	+	+	-	-	-	+	+	+
7	Alp rozaliyası – *Rosalia alpina* L.**	+	+	-	+	-	-	-	-	+	-
1	2	3	4	5	6	7	8	9	10	11	12
8	Böyük palıd uzunbığı – *Cerambyx cerdo* L.	+	-	-	+	-	+	-	-	-	+
9	Leptura uzunbığ böcəyi – *Leptura succedanea* Lew.*	+	-	+	-	-	-	+	-	-	-
10	Qara uzunbığ – *Morimus asper* Sulz.*	+				+		-	-	+	+
11	Albalı uzunburunu – *Moqdalis flavicornis* Gyll.	-	+	-	-	-	+	+	-	-	-
12	Meyvə qabıqyeyəni – *Scolytus mali* Bechst.*	-	-	+	-	-	+	-	+	-	+

Şərti işarələr: * - Azərbaycan faunası; ** - Abşeron faunası üçün ilk dəfə qeyd olunur.

Dünyada cənub və şərqi Avropada, Suriyada, Krımda və Qafqazda yayılmışdır. Bəzi ölkələrdə nadir növ kimi (Polşa, Çexoslovakiya, Ukrayna və s.) Qırmızı kitaba salınmışdır (Медведев, 1974). Abşeron yarımadası üçün ilk dəfə biz tərəfdən qeyd olunur.

7. Böyük palıd uzunbığı – *Cerambyx cerdo* L. (*Cerambycidae*). Meşə senozlarında palıd ağacının birinci dərəcəli zərərvericisidir. Böcəklərin uçuşu may ayından avqust ayınadək davam edir. Əsasən meyvə və meşə ağaclarına palıda, cökəyə, tuta, əriyə, qoza, at şabalıdına və şama zərər verir. Bakı və Sumqayıt şəhərlərində daha çox yayılmışdır. Yaşlı fərdlər ağacların ifraz etdiyi şirə ilə qidalanırlar. Bir neçə gün cütləşmədən sonra, iyun-iyul aylarında ağacların gövdələri daxilinə yumurta qoymağa başlayırlar. 12-14 gündən sonra yumurtadan çıxan sürfələr gövdənin içərisində qidalanaraq öz inkişaflarını 2-3 ilə başa vururlar. Hər ağacın gövdəsində 18-20 sürfə olur. Sürfələrin puplaşması üçüncü ildə baş verir. Onların təbiətdə görünməsi mayın axırlarından başlayaraq sentyabr ayının əvvəllərinə qədər davam edir. Böcəklərin bədən uzunluğu 24-25 mm-ə çatır. Rəngi qara-qəhvəyidir. İldə 3 nəsil verir. 4 növ entomofaq onun sayının düşməsində fəaliyyət göstərir (Cədvəl 1).

Palıd uzunbığı Azərbaycanın Şəki-Zaqatala, Quba-Xaçmaz, Şamaxı-Qobustan, Dağlıq Qarabağ, Naxçıvan MR və Lənkəran zonasında yayılmışdır (Самедов, 1963). Dünya miqyasında Cənubi Avropada və Şərqi Afrikada, Krımda, Qafqazda və Ukraynada yayılmışdır (Медведев, 1974).

Adları çəkilən 7 növ ksilofaqın sayının aşağı düşməsində 10 növ parazit və yırtıcı həşəratın (təbii düşmənləri) fəaliyyəti müəyyənləşdirilmişdir.

Entomofaqlardan 5 növü Abşeron yarımadası faunası üçün, ksilofaqların entomofaqı kimi hamısı ilk dəfə göstərilir. Ksilofaqların sayının aşağı düşməsində 4 növ entomofaqın daha böyük rol oynadığı qeyd edilmişdir ki, onların bioekologiyası, yayılması və təsərrüfat əhəmiyyəti haqda qısa məlumat verməyi lazım bilirik.

Xorides irrigator **F. –** İxnevmonid fəsiləsinə aid olan bu növ Azərbaycan faunası üçün ilk dəfə Z.M. Məmmədov və b. (1997) tərəfindən Şəki-Zaqatala bölgəsində qeydə alınmışdır. Abşeron yarımadasında uzunbığ böcəklərin ksilofaq (qızılböcək, uzunbığ böcək) sürfələrində parazitlik edir (Cədvəl 1). Ədəbiyyat məlumatına əsasən (Коломиец и Богданова, 1980) Avropa ölkələrində, o cümlədən keçmiş SSRİ-də uzunbığ böcəklərin paraziti kimi göstərilir.

Parazitin bədən uzunluğu 10-13 mm-dir. Qarıncıq hissəsi qaradır. I və III buğumları qırmızımtıl-bozdur. O, uzunbığ böcəyin ortayaşlı sürfə mərhələsində parazitlik edir. Parazit sahibin ağacın gövdəsi daxilində açmış olduğu yolla gedərək, sürfəni tapır və yumurtasını onun bədəni daxilinə qoyur. 2-3 gündən sonra (iyun ayı) yumurtadan çıxan sürfələr sahib bədəni ilə qidalanaraq öz inkişafını 16-18 günə başa vurur.Puplaşma ağacın qabığı ilə oduncağı arasında gedir. Pup dövrü 8-10 gün çəkir. İyunun axırlarında və iyulun əvvəllərində puplardan parazitlər çıxır. Puplar ağ rəngdə olur.

Atanycolus initiator **Nees. –** Ədəbiyyat məlumatlarına əsasən (Коломиец и Богданова, 1980) uzunbığ böcəklərin, qızılböcəklərin və bəzən də qabıqyeyən böcəklərin sürfələrini və hətta şüşəqanad kəpənəklərin tırtıllarını yoluxdurur. Abşeron yarımadasında bu brakonid növünün sürfə və pup mərhələsinə palıd, qovaq və fıstıq ğaclarının qabıqaltında tez-tez rast gəlinir. Xüsusilə yerə yıxılmış ağaclarda daha çox müşahidə olunur. Parazit, maral böcəyin və kərgədan böcəyin kiçik yaşlı sürfələrini yoluxdurur. Təbiətdə parazitin uçuşu mayın axırlarından sentyabrın axırınadək davam edir. Yumurtasını ağacın qabığını deşməklə onun (qabığın) altında qidalanan sürfənin üzərinə bir ədəd hesabı ilə qoyur. Sahibin bədənində ilk brakonid sürfəsinə iyun ayının ortalarında (15-20-də) rast gəlinmişdir. Sürfələr tək-tək, ağ baramanın içərisində puplaşırlar. Bu puplar ağacın oduncağı ilə qabığı arasında yapışmış vəziyyətdə olur. Yaşlı fərdlər iyulun 5-i ilə 10-u arasında puplardan çıxırlar, kütləvi uçuş iyulun 15-20-ə təsadüf edir. Yığılmış materiallara və müşahidələrə əsasən parazit ildə 2 nəsil verir. Birinci nəsil lövhəbığ böcəklərin və ikinci nəsil qızılböcəklərin sürfəsində inkişaf edir. Elektrik işığına yığılırlar.

Nudobius umbratus **Motsch. –** Bu yırtıcı stafilin böcəyi yarımadanın meşə senozlarında (Xırdalan, Xızı və s.) geniş yayılmış və ksilofaqların sayının aşağı düşməsində əsas yerlərdən birini tutur. Abşeron yarımadasında ilk dəfə biz tərəfdən qeyd olunur. Böcəyin bədəni qaradır. Bədənin uzunluğu 6,5-8 mm-ə çatır. Sürfəsinin uzunluğu 9 mm-dir. Əsaən qızılböcəklərin sürfələri ilə qidalanırlar. Palıd və qovaq ağaclarının qabıqaltı və oduncaq hissəsində aparılan müşahidələrə əsasən stafilinin özü (imaqosu) qabıqyeyənlərin yumurtaları ilə qidalanır. Belə ki, bir gün ərzində (laboratoriyada) bir yaşlı böcək 4 qabıqyeyən yumurtası, sürfəsi isə 20 qabıqyeyən yumurtası yemişdir. Bir sürfə öz inkişafı müddətində 15 qabıqyeyən və 10 ədəd qızılböcək yumurtası ilə qidalanmışdır. Böcəklərə may ayının 15-dən sentyabrın axırlarınadək rast gəlinir. İnkişaf mərhələsi qabıq altında və ya ağacın oduncaq hissəsində başa çatır. Yumurtanın inkişafı 14-16 gün, sürfənin inkişafı isə 15-16 gün çəkir. İmaqo mərhələsində ağacın ksilofaqlar tərəfindən yeyilmiş və ovuntu halına salınmış unlu hissəsində qışlayır.

Böcəyin təsərrüfat əhəmiyyəti var. O, qızılböcəklərin və qabıqyeyənlərin sayının aşağı düşməsində mühüm rol oynayır.

Thanasimis formicarius **L. –** Bu yırtıcı alaböcək *Oleridae* fəsiləsindən olub, tədqiqat apardığımız zonada geniş yayılmışdır. Qabıq-yeyənlərin sayının aşağı düşməsində mühüm rol oynayır və böyük təsərrüfat əhəmiyyətinə malikdir.

Bir sıra müəlliflər tərəfindən geniş öyrənilmişdir. Rusiyada və digər keçmiş SSRİ dövlətlərində isə bu böcəyin öyrənilməsinə axırıncı illərdə diqqət yetirilmişdir (Воронцов, 1984). Bizim respublikamızda isə ilk dəfə olaraq Z.M. Məmmədov və b. (1997) tərəfindən öyrənilmişdir. Abşeronda böcəklər aprelin axırı və mayın əvvəllərində uçmağa başlayırlar. Bu ərəfədə qışlamadan çıxan qabıqyeyənlər və qızılböcəklər öz yumurtalarını ağacların qabıqaltına və ya oduncaq hissəsinin yarıqlarına qoyurlar. Təbiətdə kütləvi uçuş müddəti iyun ayının ikinci yarısınadək davam edir. Sonra tək-tək görünür və fəaliyyəti nəzərə çarpmır. Sentyabr ayının ortalarında Xırdalan və Buzovnada rast gəlinib. Böcək imaqo halında qışlayır. Qışlamadan çıxan böcəklər asanlıqla bir ağacdan digərinə və hətta bir meşə sahəsindən digər meşə sahəsinə keçir. Yırtıcı böcəklərin cütləşməsi

əsasən ksilofaqların geniş yayıldığı ağaclar üzərində gedir, həmin ağaclarda daha tez-tez cütləşmiş vəziyyətdə rast gəlinməsi və onların həmin ağaclar üzərinə yumurta qoyması da elə sahiblə bağlıdır. Cütləşmədən 5-6 gün sonra yumurtaqoyma baş verir. Böcəklər ağacların qabığı altına və ya yarıq hissələrinə tək-tək 20-60-dək yumurta qoyurlar. Yumurtalar, əsasən ksilofaqların yumurta qoyduqları və ya ağacın içərisinə, sürfələrin giriş yoluna yaxın hissələrdə yerləşdirilir. Bir dişi fərd 30-a yaxın, N.Q. Kolomiyes və D.A. Boqdanova (Коломиец и Богданова, 1980) görə 11-dən 115-dək, A.İ. Voronsova (Воронцов, 1984) görə 95-dək yumurta qoyur. Yumurta mərhələsi 8-12 gün çəkir. Yumurtadan çıxan sürfələrə mayın axırlarında və iyunun əvvəllərində rast gəlinir. Sürfələrin rəngi sarımtıl-ağ və ya sarımtıl-çəhrayı olur. Sürfələr 4 yaş dövrü keçirir. Axırıncı yaş sürfənin uzunluğu 18-20 mm-ə çatır. Sürfənin inkişafı 55-60 gün çəkir, payızda ağacın kök hissəsinə miqrasiya edərək, ağacın ksilofaqlar tərəfindən yeyilib, ovulmuş hissəsində pup-beşikcik düzəldərək orada da qışlayırlar.

Tanasimus böcəyinin olduqca böyük təsərrüfat əhəmiyyəti vardır.

ƏDƏBİYYAT

Məmmədov Z.M., Mirzəyeva N.B., Əhmədova V.Ə. (1997) Azərbaycanın Böyük Qafqaz zonasında meşə ağaclarına zərərverən ksilofaqlar və onların təbii düşmənləri. AMEA-nın Xəbərləri (biol. elm. ser.) **1-6:** 23-29.

Воронцов А.И. (1984) Биологическая зашита леса. Лесная промышл., М.: 119 с.

Коломиец Н.Г., Богданова Д.А. (1980) Паразиты и хищники ксилофагов Сибири. Наука (Сибирское отделение), Новосибирск: 227 с.

Медведев С.И. (1974) Насекомые и клещи вредители сельскохозяйственных культур. Наука, Ленинград, **2:** 119 с.

Самедов Н.Г. (1963) Фауна и биология жуков вредящих сельскохозяйственным культурам в Азербайджана. Изд. АН Азерб.: 377 с.

З.М. Мамедов, Л.А. Ширинова

Морфо-Биоэкологические Особенности Основных Ксилофагов. Вредящих Плодовым Культурам, и их Энтомофаги в Условиях Апшерона

В результате исследований проведенных на Апшеронском полуострове было выявлено 12 видов из 7 семейств ксилофагов, вредящих деревьям. Изучены морфо-биоэкологические особенности, распространение и хозяйственное значение 7 наиболее вредных видов. Из зарегистрированных 12 видов ксилофагов выведено 10 видов энтомофагов. Из них у 4 видов (*Xorides irrigator* F., *Atanycolus initiator* Nees., *Nudobius umbratus* Motsch., *Thanasimis formicarius* L.*)* были изучены биоэкологические особенности и их роль в снижении численности ксилофагов. От изученных ксилофагов 4 вида (*Dicerca berolinensis* Hbst., *Leptura succedanea* Lew., *Morimus asper* Sulz., *Scolytus mali* Bechst.), а из энтомофагов 2 вида (*Scambus terebrans* Ratz., *Tachuta nana* Gyll.) впервые отмечаются для фауны Азербайджана.

Z.M. Mamedov, L.A. Shirinova

Morphobioecological Peculiarities of the Main Xylophages Orchard Pests and their Entomophages on Absheron Peninsula

In the result of investigations carried out in Absheron Peninsula 12 species of xylophages pests from 7 families were found. Morphobioecological peculiarities distribution and practical importance of 7 most harmful species were studied. Ten species of entomophages were obtained from 12 registered species of xylophages. In four species of these (*Xorides irrigator* F., *Atanycolus initiator* Nees., *Nudobius umbratus* Motsch., *Thanasimis formicarius* L.) bioecological peculiarities and the role in reduction of xylophages populations were investigated. Four species of xylophages (*Dicerca berolinensis* Hbst., *Leptura succedanea* Lew., *Morimus asper* Sulz., *Scolytus mali* Bechst.) and two species of entomophages (*Scambus terebrans* Ratz., *Tachuta nana* Gyll.) are reported to the fauna of Azerbaijan for the first time.

AMEA-nın Xəbərləri (biologiya elmləri), cild 66, №1, səh. 170-173 (2011)

Azərbaycan Florasına Daxil olan Dərman Bitkilərində Yayılan Anamorf Göbələklərin Ümumi Xarakteristikası

P.Z. Muradov[1]*, N.Ş. Hacıyeva[2], N.N. Mustafazadə[1], İ.Ə. Əliyev[1], F.X. Qəhrəmanova[1]
[1]*AMEA Mikrobiologiya İnstitutu, *E-mail: azmbi@mail.ru*
[2]*Bakı Dövlət Universiteti*

Aparılan tədqiqatların nəticəsində Azərbaycan florasına daxil olan dərman bitkilərinin mikobiotası tədqiq edilmiş və müəyyən edilmişdir ki, nümunə götürülən 83 bitki növündə 117 növ göbələk yayılmışdır. Qeydə alınan göbələklərin 2/3 hissəsi anamorf göbələklərə, qalanları isə bazidiomisetlərə, askomisetlərə və ziqomisetlərə aiddir. Dərman bitkilərində yayılması qeydə alınan göbələklər arasında həm fitopatogenlər, həm toksigenlər, həm də allergen göbələklərin olması da müəyyən edilmişdir.

Açar sözlər: *mikobiota, dərman bitkiləri, rastgəlmə tezliyi, fitopatogen, toksigen*

GİRİŞ

Məlum olduğu kimi ali bitkilərin bir çoxu dərman əhəmiyyətlidir və insanlar hələ qədim zamanlardan bəri onlardan bu və ya digər xəstəliyin müalicəsində istifadə etmişlər (Дамиров и др., 1988). Belə xüsusiyyətə malik bitkilər Azərbaycan florasındada geniş rast gəlinir ki, hazırda onlar Azərbaycan florasında 1545 növlə təmsil olunurlar ki, bu da Azərbaycan florasına daxil olan ümumi bitki növlərinin 34,3%-ni təşkil edir (Mehdiyeva, 2011). Qeyd etmək lazımdır ki, bu saya başqa yerlərdən gətirilərək yerli şəraitə introduksiya edilən növlərdə daxildir.

Bu gün Azərbaycanda rast gəlinən dərman bitkilərindən adi balqabaq (*Cucurbita pepo* L.), adi yağtikan (*Alhagi pseudalhagi* (Bieb.) Fisch.), adi quşarmudu (*Sorbus caucasigena* Kom.), adi çaytikanı (*Hippophae rhamnoides* L.), acı yovşan (*Artemisia absinthium* L.), adi şam (*Pinus sylvestris* L.), biyan (*Glycyrrhiza glabra* L.), dəfnə (*Laurus nobilis* L.), gülxətmini (*Althaea officinalis* L.), gülünbahar (*Calendula officinalis* L.), qumral əvəlik (*Rumex crispus* L.), zeytun (*Olea europaea* L.), yapon saforası (*Sophora japonica* L.), gəcəvər (*Acorus celamus* L.), nanə (*Mentha piperita* L.), qarğıdalı (*Zea mays* L.), çökə (*Tilia beqoniifolia* Stev.), çobanyastığı (*Matricaria chamomilla* L.), valerian (*Valeriana officinalis* L.), güləbrişin (*Albizzia julibrissin* Durazz.), zirinc (*Berberis vulgaris* L.), pion (*Paeonia* L.), rozmarin (*Rozmarin officinalis* L.), yalanqoz (*Pterocarya pterocarpa* (Michx.) Kunth ex İ.İljinsk.), yemişan (*Crataegus pentagyna* L.) və digərləri nisbətən geniş yayılmışlardan (Дамиров и др., 1988; Qurbanov, 2009; Mehdiyeva, 2011) hesab edilir.

Dərman bitkiləri əsasən tərkiblərindəki bioloji, ilk növbədə farmakoloji aktivliyə malik olan maddələrə görə diqqəti cəlb edirlər. Farmakoloji aktiv maddələr isə kimyəvi tərkibinə görə müxtəlif olurlar və hazırda onların sistemləşdirilməsində (www.medunica.info/svedeniy/obsvedeniy.htm) bu xüsusiyyətdən də geniş istifadə edilir.

Azərbaycanda yayılan dərman bitkilərinin bir çoxu aparılan müxtəlif xarakterli tədqiqatların predmetinə çevrilibdir və onların sistematikası, botaniki-coğrafi rayonlar üzrə paylanmasına, mənşəyinə, terapevtik xüsusiyyətlərinə görə geniş tədqiq edilmişdir (Дамиров и др., 1988; Qurbanov, 2009; Mehdiyeva, 2011). Lakin dərman bitkilərinin, istər Azərbaycan florasına aid olan, istərsə də introduksiya olunan növlərin sistemli şəkildə mikoloji, o cümlədən fitopatoloji aspektdə tədqiq edilməyibdir və yalnız aparılan bəzi tədqiqatlarda göbələklərin məskunlaşma yerləri göstərilərkən, bu və ya digər dərman bitkilərinin adlarına da rast gəlmək mümkündür. Baxmayaraq ki, hər il göbələklərin törətdiyi xəstəliklər nəticəsində bu və ya digər növlərin məhsuldarlığı kifayət qədər azalır, bir çoxu məhv olur və nəticədə populyasiyada fərdlərin sayı azalır (Хохряков и др., 2003). Bunların qarşısının alınması, yəni müşahidə olunan mənfi xarakterli təsirlərin aradan qaldırılması üçün kompleks tədbirlərin müəyyən edilməsi üçün isə dərman bitkilərinin mikobiotasının, xüsusən onun patogen nümayəndələrinin əhatəli şəkildə tədqiq edilməsi, göbələk-sahib bitki arasındakı münasibətlərin formasının aydınlaşdırılması çox vacib və aktuallığı ilə seçilən məsələlərdəndir ki, təqdim olunan işin də məqsədi bu istiqamətdə olan problemlərin həllinə yönəlməsi məqsədəuyğun hesab edilmişdir.

MATERİAL VƏ METODLAR

Bu məqsədlə tərəfimizdən müxtəlif yerlərdə (təbii və süni meşələrdə, bağlarda, çöllərdə, otlaqlarda və AMEA-nın Mərkəzi Nəbatat bağında) yabanı halda bitən, eləcə də mədəniləşdirilən dərman

bitkilərindən nümunələr götürülmüş və ilk olaraq göbələklərin növ tərkibinə görə analiz edilmişdir.

Nümunələrin götürülməsi və analiz üçün hazırlanması mikoloji tədqiqatlarda istifadə edilən məlum metod və yanaşmalara (Методы экспериментальной микологии, 1982), eləcə də bizim əvvəlki işlərimizə (Еюбов и др., 2010, 2011) əsasən həyata keçirilmişdir. Göbələklərin identifikasiyası kultural-morfoloji və fizioloji əlamətlərə əsaslanan təyinedicilərdən (Ellis, 1971; Subramanian, 1971; Мельник, 1977; Пидопличко, 1977 а, б, 1978; Gerlach and Nirenberg, 1982; Kirk et al., 2001; Левитин и Тютерев, 2003), eləcə də CAB-ın baza məlumatlarından və s.-dən istifadə edilməklə həyata keçirilmişdir. (http://www.cbsknaw.nl/databases and www.indexfungorum.org/Names/fungic.asp).

NƏTİCƏLƏR VƏ ONLARIN MÜZAKİRƏSİ

İndiyə kimi aparılan tədqiqatlarda Azərbaycan florasına daxil olan 83 növ dərman bitkilərində 104 göbələk növünün yayılması aşkar edilmişdir ki, onların haqqında məlumatlar ümumiləşdirilmiş şəkildə 1-ci cədvəldə verilir. Göründüyü kimi, qeydə alınan göbələklər arasında ən geniş növ tərkibi ilə *Ascochyta*, *Aspergillus*, *Fuzarium*, *Penicillium* və *Septoria* cinsləri xarakterizə olunur ki, onlara xas olan növlərin sayı 7-11 arasında yerləşir. Ümumiyyətlə bu cinslərə aid növlər ümumilikdə dərman bitkilərində qeydə alınan göbələklərin 45,2%-ni təşkil edir. Ümumiyyətlə qeydə alınan mikromisetlərin əksəriyyəti, təxminən 2/3 hissəsi anamorf göbələklərə aidir. Qalan göbələklər isə bazidiomisetlər, askomisetlər və ziqomisetlərə aiddir.

Dərman bitkilərində qeydə alınan bazidili göbələklərin ksilotroflara aid nümayəndələrinin, yəni makromisetlərin sayı o qədər də çox deyil, belə ki, onlar dərman bitkilərinin mikobiotasında cəmisi 5 cinsə aid 9 növlə təmsil olunurlar. Bunun səbəbi onunla bağlıdır ki, ksilotrof göbələklərə ağaclarda məskunlaşa bilirlər və Azərbaycan florasına daxil olan dərman bitkilərindən cəmi 122 növü ağacdır. Tədqiqatların gedişində isə onların yalnız 10 növündən nümunə götürülmüşdür.

Məlumdur ki, dərman bitkilərinin əksəriyyəti, yəni 77%-i xalq təbabətində istifadə edilir və onların istifadə forması bu və ya digər bitkinin qurudulmuş halda olan vegetativ və ya generativ orqanlarından istifadə edilir. Bu prosesin, yəni dərman bitkilərinin tədarükü və istifadəyə hazır formaya gətirilməsi açıq sistemdə baş verir ki, bu da orada müxtəlif göbələklərin məskunlaşmasına səbəb olur. Digər tərəfdən, göbələk hüceyrəsində baş verən lizis prosesi nəticəsində onların metabolitləri, o cümlədən mikotoksinləridə dərman bitkilərinə keçir ki, onların bir çoxu insan sağlamlığı üçün çox təhlükəlidir. Bu baxımdan tədqiqatların gedişində dərman bitkilərində yayılan göbələklərin toksigenliyinə və allergenliyinə görə xarakterizə edilməsi maraq doğurur. Müəyyən olunmuşdur ki, qeydə alınan növlərin içərisində həm şərti patogen (opportunist), həm toksigen, həm allergen göbələklər kifayət qədərdir. Təhlükəli cəhətlərdən biri də odur ki, bu göbələklər həm dərman bitkilərinin böyüməsi prosesində, həm də onlardan istifadə üçün alınan quru kütlədə müşahidə olunurlar və nisbətən yüksək rastgəlmə tezliyi ilə xarakterizə olunurlar. Məsələn, insan sağlamlığı üçün ciddi təhlükə mənbəyi olan mikotoksinləri sintez etmə qabiliyyətinə malik olan *Aspergillus flavus* Lk., *A.fumigatus* Fres., *A.ochraceus* Wilhelm., *Fusarium oxysporum* Schlecht., *F.moniliforme* Sheldon, *Penicillium cyclopium* Westling və s. kimi göbələklərin tədqiq edilən nümunələr üzrə rastgəlmə tezliyi 8,6-35,4% arasında yerləşir.

Dərman bitkilərində yayılması qeydə alınan göbələklər arasında fitopatogenlərdə az deyil ki, onlarında ən geniş yayılmış cinslərinin xarakteristikası ümumi şəkildə aşağıda verilir.

Septoria cnsinə aid olan göbələklər bitkilərdə müxtəlif patologiyalar törədirlər ki, bunları da ümumi şəkildə ləkəlik xəstəliyi adlandırırlar. Bu cinsin nümayəndələri Azərbaycanda da geniş yayılıb və müxtəlif bitkilərdə analoji patologiyalar törədir. Aparılan tədqiqatlarda dərman bitkilərində Septoria cinsinin 11 növünün yayılması aşkar edilmişdir ki, onlarında yayılması qeydə alınan bitki növlərinin sayı 20 olmuşdur. Qeydə alınan növlərin əksəriyyəti (8 növ) əsasən konkret sahib-bitkidə məskunlaşa bilir. Məsələn, *S.iridis* C.Massal yalnız süsəndə (*Iris germanica*), S.primulae Buckn. novruzgülündə (*Primule heterochroma* Stapf.), *S.violae* Rabenh. isə yalnız bənövşədə (*Viola arvensis* Murr.) məskunlaşa bilir. Septoria cinsinin sahib bitki siyahısı bir qədər geniş olan növləridə var, lakin tədqiqatların gedişində Azərbaycanın dərman bitkilərində belə növlərin sayı 3 olmuşdur ki, onlarında hər biri 3-5 bitki növündə məskunlaşa bilir. Maraqlıdır ki, *Septoria* cinsinin yayılması qeydə alınan növlərin 5-i (*S.brunneoola* (Fr.) Niessi, *S.gentianae* Thuem., *S.iridis*, *S.primulae*, *S.violae*) Azərbaycan şəraitində ilk dəfədir ki, müşahidə olunur.

Phyllosticta cinsinə aid göbələk növləri əsasən bitkilərin filloplanında məskunlaşırlar ki, tədqiqatların gedişində müəyyən olunmuşdur ki, onların rast gəlindiyi bitkilər isə 4 cinsə 7 növə aiddir.

Bu cinsin nümayəndələridə ləkəlik xəstəliyi törədirlər. Məsələn, *Ph.polemonii* A.A.Sm. qızılgüldə (*Rosa* L.), *Ph.sophorae* Ellis et Everh. soforada (*Sophora fl*avescens) qeyd edilən xəstəliyi törədir. *Phyllosticta* cinsinin sahib bitkilərə münasibəti də bir qədər məhduddur, yəni qeydə alınan növlərin əksəriyyətinin (5 növ) yalnız bir bitki növündə yayılması aşkar edilmişdir.

Cədvəl 1. Dərman bitkilərində rast gəlinən göbələklər və onların sahib bitkilərinin ümumi xarakteristikası

Sıra №	Cins	Növlərin sayı	Sahib bitkinin cins tərkibi
	Acremonium	1	*Rosa*
1	*Alternaria*	5	*Artemisia, Calendula, Crataegus, Daucus, Iris, Olea, Pyrethrum, Sorbus, Viburnum, Zea*
2	*Ascochyta*	8	*Aconitum, Crataegus, Laurus, Primula, Rumex, Sorbus, Valeriana, Verbascum*
3	*Aspergillus*	10	*Crataegus, Glycyrrhiza, Paeonia, Pyrethrum Sorbus, Rumex*
4	*Botrytis*	1	*Artemisia, Crataegus, Heliantus, Iris, Paeonia, Rosa, Viola*
5	*Cersospora*	1	*Paeonia,*
6	*Cladosporium*	4	*Iris, Paeonia, Rosa, Sorbus*
7	*Colletotrichum*	3	*Viola*
8	*Fomes*	1	*Tilia, Salix, Quercus*
9	*Fomitopsis*	2	*Ficus, Sophora, Tilia, Quercus*
10	*Fumago*	1	*Sorbus*
11	*Fuzarium*	7	*Crataegus, Olea, Pyrethrum, Zea*
12	*Inonotus*	1	*Morus, Sophora*
13	*Ganoderma*	2	*Tilia, Pterocarya, Quercus*
14	*Marssonina*	1	*Rosa*
15	*Monilia*	1	*Berberis, Crataegus, Sorbus*
16	*Mucor*	5	*Artemisia Crataegus Glycyrrhiza Sorbus*
17	*Pencillium*	11	*Crataegus, Paeonia, Pyrethrum*
18	*Phoma*	3	*Berberis*
19	*Phyllosticta*	6	*Crataegus, Rosa, Sophora,Verbascum*
20	*Phomopsis*	1	*Berberis*
21	*Ramularia*	4	*Sorbus*
22	*Rhizopus*	1	*Paeonia*
23	*Rhizoctina*	1	*Heliantus, Zea*
24	*Septoria*	11	*Aconitum, İris, Valeriana, Crataegus, Convolvulus, Paeonia, Polygonum, Pyrethrum, Sorbus, Primula, Tanasetum, Valeriana, Veronica, Viola*
25	*Stemphylium*	2	*Ficus, Heliantus*
26	*Sclerotium*	1	*Crataegus*
27	*Trametes*	3	*Hippophae, Tilia, Sophora, Pterocarya*
28	*Trichoderma*	3	*Crataegus*
29	*Trichotecium*	1	*Rosa*
30	*Verticillium*	2	*Heliantus, Olea*

Alternaria cinsinə aid növlərində bitkilərdə törətdiyi xəstəlik ləkəlik adlanır ki, onlarında arasında ən geniş yayılanı və daha geniş spektrli sahib bitki siyahısına malik olanı *A.alternata* (Fr.:Fr.) Keyssl., eləcə də *A.tenuissima* (Kunze: FR.) Wiltshire hesab edilə bilər. Beləki, birincinin sahib bitki siyahısına 9, ikincininkinə isə 7 bitki cinsinin adı daxildir. Süsəndə rast gəlinən *A.iridicola* (Ellis et Everh.) J.A.Elliot və gülünbaharda rast gəlinən *A.calendulae* Ondrej 1%-dən az rastgəlmə tezliyi ilə xarakterizə olunsalar da, onların Azərbaycan şəraitində yayılmasının qeydə alınması ilk dəfədir.

Ascochyta cinsinə aid göbələklərin substrat siyahısı da genişdir və onların sahib-bitkilərdə əmələ gətirdikləri xəstəlik askoxitoz adlanır. Məsələn, *A.patogonica* Speg. kəpənəkçiçəkdə (*Aconitum nasutum* Fisch.), *A.verbasci* Sacc. Et Speg. sığırquyruğda (*Verbascum thapsus* L.) analoji patologiya törədir. Bu cinsin nümayəndələri ümumiyyətlə Azərbaycanda geniş yayılıblar, buna baxmayaraq tədqiqatların gedişində novruzgülündə aşkar edilən *A.primulae* Trail, pişikotunda (*Valeriana officinalis* L.) qeydə alınan *A.valerianae* A.L.Sm. et Ramsb. Azərbaycan mikobiotası üçün yenidir.

Anamorf göbələklərin sahib bitki cinsləri üzrə paylanmasının analiz edilməsi nəticəsində aydın oldu ki, *Crataegus* və *Sorbus* cinslərinin mikobiotası növ tərkibinə görə daha zəngindir, beləki, tədqiqatların gedişində onlarda anamorf göbələklərin müvafiq olaraq 34 və 31 növünün yayılması aşkar edilmişdir.

Beləliklə, aparılan tədqiqatlar Azərbaycan florasına daxil olan dərman bitkilərində yayılması qeydə alınan anamorf göbələklər haqqında təsəvvürləri genişləndirməklə yanaşı, Azərbaycan təbiətinə xas mikobiotasna aid edilən xeyli növün yayılmasını da aşkar etdi.

ƏDƏBIYYAT

Ellis M.B. (1971) Dematiaceous Hyphomycetes. C.M.J.: Kew: 608 p.

Gerlach W., Nirenberg H. (1982) The genus *Fuzarium* – a pictorial atlas. Berlin, Hamburg: 123 p.

Kirk P.M. et al. (2001) Ainsworth and Bisby's Dictionary of the fungi. (P.M. Kirk et al., eds.) 9th edd. CAB International: 655 p.

Mehdiyeva N.P. (2011) Azərbaycanın dərman florasının biomüxtəlifliyi. Letterpres, Bakı: 188 s.

Qurbanov E.M. (2009) Dərman bitkiləri. Bakı Universiteti, Bakı: 360 s.

Subramanian C.V. (1971) Hyphomycetes. New Delhi, Icar: 930 p.

Дамиров И.А., Прилипко Л.И., Шукюров Д.З., Керимов Ю.Б. (1988) Лекарственные растения Азербайджана. Маариф, Баку: 319 с.

Еюбов Б.Б., Меджнунова А.А., Керимов З.М., Гаджиева Н.Ш., Гахраманова Ф.Х., Рзаева А.А. (2010) Микобиота растительных материалов, используемых для различных целей в условиях Азербайджана. Вестник МГОУ (серия естественные науки) **4:** 55-57.

Левитин М.М., Тютерев С.Л. (2003) Система наблюдений за развитием болезней. Защита и карантин растений **11:** 81-83.

Мельник В.Н. (1977) Определитель грибов рода *Ascochyta*. Л., Наука: 89-90.

Методы экспериментальной микологии (1982) (под. ред. Билай В.И.) Киев, Наукова думка: 500 с.

Пидопличко Н.М. (1977 а) Грибы-паразиты культурных растений. Определитель. Киев, Наукова думка **1:** 160 с.

Пидопличко Н.М. (1977 б) Грибы-паразиты культурных растений. Определитель. Киев, Наукова думка: **2:** 299 с.

Пидопличко Н.М. (1978) Грибы-паразиты культ. раст. Определитель. Киев, Наукова думка **3:** 175 с.

Хохряков М.К., Доброзракова Т.Л., Степанов К.М., Летова М.Ф. (2003) Определитель болезней растений. СПб., Лань: 592 с.

Эюбов Б.Б., Гаджиева Н.Ш., Гахраманова Ф.Х., Меджнунова А.А. (2011) Общая характеристика микромицетов, вызывающих болезни сельскохозяйственных культур, возделываемых в условиях Азербайджана. Вестник МГОУ (серия естественные науки) **2:** 106-108.

П.З. Мурадов, Н.Ш. Гаджиева, Н.Н. Мустафазаде, И.А. Алиев, Ф.Х. Гахраманова

Общая Характеристика Анаморфных Грибов Лекарственных Растений Флоры Азербайджана

В результате проведённых исследований была изучена микобиота лекарственных растений, входящих во флору Азербайджана и было определено, что во взятых образцах 83 видов растений было распространено 117 видов грибов. Из отмеченных грибов 2/3 относились к анаморфным грибам, а остальные к базидиомицетам, аскомицетам и зигомицетам. Среди грибов, распространение которых отмечено в лекарственных растениях были определены и фитопатогены, и токсигены, и аллергенные грибы.

P.Z. Muradov, N.Sh. Hajiyev, N.N. Mustafazade, I.A. Aliyev, F.Kh. Ghahramanova

The General Characteristic of the Anamorphic Fungi of Medicinal Plants of the Flora of Azerbaijan

As a result of the researches micobiota of medicinal plants of the Azerbaijan flora has been studied and it was identified 117 fungi species in sampled 83 plant species. 2/3 of identified fungi belongs to anamorphic fungi, and others to basidiomycetes, ascomycetes and zigomycetes. Among these fungi found in medicinal plants phytopathogenic, toxigenic and allergenic fungi were determined.

AMEA-nın Xəbərləri (biologiya elmləri), cild 66, №1, səh. 174-177 (2011)

Müqəddəs Hind Xiyarının (*Momordica charantia* L.) Abşeronda İntroduksiyası

A.D. Mehralıyev
AMEA-nın Mərkəzi Nəbatat Bağı, Badamdar şossesi, 40, Bakı AZ1073, Azərbaycan,
E-mail: sevff@mail.ru

İlk dəfə Abşerona həvəskar tərəvəzçilər tərəfindən gətirilərək introduksiya olunmuş və 2008-ci ildən Mərkəzi Nəbatat Bağında Hind xiyarı adı ilə becərilməyə başlamış *Momordica charantia* L. növünün morfoloji əlamətləri, bioloji xüsusiyyətləri, fenologiyası və aqrotexnikası verilmişdir.

Açar sözlər: *Hind xiyarı, Momordica charantia, introduksiya, morfoloji əlamətlər*

GİRİŞ

Abşeron florasının yeni bitki növləri ilə zənginləşdirilməsi, xüsusilə dekorativ bağçılıqda ekzotik bitkilərin introduksiyası həmişə olduğu kimi, müasir dövrdə də öz aktuallığını saxlayır. Bu baxımdan bəzək-bağçılıqda xüsusi diqqət çəkən, öz ekzotik görkəmi ilə seçilən, xüsusilə meyvələrinin yetişib-açılma dövründə daha da baxımlı olan və eyvanların, söhbətkeşlərin, pəncərələrin və s. şaquli yaşıllaşdırılmasında müvəffəqiyyətlə istifadə olunan bitkilərdən biri də momordikadır (*Momordica charantia* L.).

Hazirda Rusiya ərazisində, Gürcüstanda bu bitki hind xiyarı, hind narı, çin aci qabağı və s. adı ilə becərilir.

MATERİAL VƏ METODLAR

Müqəddəs hind xiyarının (*Momordica charantia* L.) toxumları ilk dəfə 2008-ci ildə Gürcüstanlı həvəskar tərəvəzçilərdən toxum mübadiləsi vasitəsilə əldə edilərək, Mərkəzi Nəbatat Bağına introduksiya edilmişdir.

Tədqiqatın metodikası olaraq, ilk cücərtilərin və əsas zoğun inkişaf dinamikası İ.T.Vasilçenkonun (1960), A.A.Molçanovun və V.V.Smirnovun (1967) təklif etdikləri metodika əsas götürülmüşdür: təcrübələr növün 3 nümayəndəsi üzərində aparılmaqla ölçmələr hər ayın son günündə yerinə yetirilmişdir.

Tədqiq etdiyimiz növün toxumla çoxaldılması M.K.Firsovaya əsasən aparılmışdır (Фирсова, 1955). Növ uzərində fenoloji müşahidələrin tədqiqi Rusiya Baş Nəbatat Bağının hazırladığı metodika əsasında aparılmışdır (Александрова и др., 1975). Tədqiqat zamanı aşağıdakı fenoloji müşahidələr qeyd olunmuşdur: səpin vaxtı, ləpə yarpaqların əmələ gəlməsi, ilk həqiqi yarpaqların əmələ gəlməsi, çiçəkləmə, meyvəvermə, meyvələrin tam yetişməsi, məhsulun sonu, vegetasiyanın sonu. Qeyd olunmalıdır ki, hər iki şəraitdə və bütün variantlarda toxumlar 3 sm dərinliyə basdırılmaqla yuva üsulu ilə və hər yuvaya 3 ədəd toxum səpilməklə əkilmişdir.

NƏTİCƏLƏR VƏ ONLARIN MÜZAKİRƏSİ

Momordika (*Momordica* L.) Qabaqçiçəklilər (*Cucurbitaceae*) fəsiləsinə aiddir. Asiya, Afrika və Avstraliyada 40-dan çox növü yayılmışdır. Həmin növlər içərisində öz dekorativliyi ilə seçilən və becərilmə arealı nisbətən geniş olan növlərindən biri momordika xarantiadır (*Momordica charantia* L.) (Ширяева, 2006).

Vətəni Hindistan hesab edilən bu növ birillik ot tipli sarmaşan bitki olub, 5,5 m qədər uzana bilir.

Gövdəsi 4 tilli, kobud, xırda tükcüklü və çox elastikdir. Yarpaqları 5-7 dilimli – barmaqvari, üstdən zümrüdü-yaşıl, alt tərəfdən isə açıq-yaşıl rənglidir. Zoğ üzərində hər 5-7 sm-dən bir buğumlar, hər buğumda isə bir tərəfdə yarpaq, qarşı tərəfdə isə 25 sm-ə qədər uzunluqda olan bığcıqlar formalaşır. Yarpaq və bığcıqların səthi zəif-tükcüklüdür. Bitki bığcıqları vasitəsilə hər hansı dayağa dolanaraq inkişaf edir. Hər yarpaq qoltuğundan parlaq-sarı rəngli orta irilikdə çiçəklər əmələ gəlir. Çiçəkləri ətirlidir. Bitki birevli, çiçəklər isə bircinslidir. Əvvəlcə erkək çiçəklər, sonra isə dişi çiçəklər formalaşır.

Meyvəsi uzunsov, ellipsvari, uzunluğu 15-25 sm, diametri 3-5 sm-dir. Əvvəlcə yaşıl, yetişdikdə isə qızılı-sarı rənglidir, açılandır. Meyvə yetişdiyi və açıldığı dövrdə bitki daha dekorativ görünür. Meyvələrin səthi qabarlıdır. Toxumlar yastı-uzunsov, qonur rəngli olub, səthi qırmızı rəngli şirintəhər şirəli lət hissə ilə əhatə olunmuşdur. Lət hissə yeyiləndir. Bir meyvədə 10-25 ədəd toxum olur. Meyvələr tam yetişdikdə partlayıb üç hissəyə bölünür və içərisindəki qırmızı yanlıqlı toxumlar aydın görünür (Şək. 1).



Şək. 1. Müqəddəs hind xiyarının yetişmiş meyvəsi və toxumları.

Bitki bütün vegetasiya müddəti həm inkişaf edib böyüyür, həm də çiçəkləyib meyvə əmələ gətirir. Eyni vaxtda kol üzərində həm çiçək, həm yetişməmiş və ya yarıyetişmiş meyvə, həm də tam yetişib açılmış meyvələr müşahidə edilir. Ona görə də bitki bütün vegetasiya boyu çox dekorativ görkəmdə olur ki, onun belə xüsusiyəti bəzək - bağçılıq üçün böyük əhəmiyyət kəsb edir (Şək. 2).



Şək. 2. İstixana şəraitində becərilən müqəddəs hind xiyarı.

Hind xiyarının toxumları tərəfimizdən ilk dəfə 2008-ci ildə həm istixana, həm də açıq şəraitdə 3 variantda (təkrarda) səpilmiş və əsas zoğunun böyümə dinamikası öyrənilmişdir (Cədvəl 1 və 2). Eyni zamanda bitki üzərində fenoloji müşahidələr (Cədvəl 3) aparılmışdır.

1 və 2 saylı cədvəllərin müqayisəli təhlilindən məlum olur ki, may ayında havanın temperaturunun nisbətən aşağı olduğu bir dövrdə, çöl şəraitində bitkinin əsas zoğu torpaq qidasından asılı olaraq 5-15 sm uzandığı halda, bu rəqəm istixana şəraitində 100-150 sm təşkil etmişdir. Ümumiyyətlə isə gündəlik müşahidələrimiz göstərdi ki, havanın temperaturu 20º-dən aşağı olduqda hind xiyarında böyümə dayanır.

1 və 2 saylı cədvəllərin təhlilindən həm də məlum olur ki, hind xiyarı qida maddələrinə çox tələbkardır. Belə ki, vegetasiyanin sonunda istixana şəraitində adi torpaqda bitkinin əsas zoğunun uzunluğu 298 sm olduğu halda, peyin və gübrə qarışdırılmış qidalı torpaqda bu rəqəm 443 sm, torf qarışığında isə orta hesabla daha yüksək 530 sm olmuşdur. Bitkinin çöl şəraitində əsas zoğunun inkişafı nisbətən zəif olur, yəni vegetasiyanın sonunda bu rəqəm adi torpaq şəraitində 80 sm, qidalı torpaqda 409 sm, torfda isə 468 sm olmuşdur. Bunu da onunla əlaqədar edirik ki, istixana şəraitində, bitki güclü küləklərdən heç bir əziyyət çəkmədiyi halda çöl şəraitində belə küləklər bitkinin inkişafına xeyli dərəcədə mənfi təsir edir.

Hind xiyarının əsas zoğunun istixana və çöl şəraitində böyümə dinamikasının tədqiqi, həmçinin fenoloji müşahidələr nəticəsində məlum olmuşdur ki, bitki işıqsevəndir. Yarımkölgə şəraitində becərilən nümunələr vegetasiya dövründə çox az çiçəkləyir, əksinə bitkinin becərildiyi ərazi nə qədər günəşli olsa onun böyüməsi, çiçəkləmə faizi və meyvə əmələgətirmə əmsalı daha sürətli və artıq olur. Bitki üzərində fenoloji müşahidələr zamanı həm də məlum olmuşdur ki, əlverişli torpaq-iqlim şəratində və yemləmə gübrələrinin mütamadi tətbiqi nəticəsində kollar ilk şaxtalar düşənə qədər bol çiçəkləyib meyvə əmələ gətirirlər. Hind xiyarının Abşeron şəraitində fenoloji müşahidəsinin tədqiqi nəticəsində məlum oldu ki, o istiliyə çox tələbkardır. Belə ki, bitkinin toxumları torpağın temperaturu 18-20º-yə qalxdıqda cücərməyə başlayır. Bu temperatur norması Abşeronda ancaq aprel ayının 3-cü ongünlüyü və may ayının əvvəllərinə təsadüf edir.

Cədvəl 3-ün təhlili göstərir ki, hind xiyarının çiçəkləməsi ayrı-ayrı illərdə may ayının 3-cü ongünlüyündən başlayaraq, noyabr ayının ortalarına qədər, yəni, təxminən 150 günə qədər davam edir. Meyvələrin əmələ gəlməsi isə iyun ayının 1-ci ongünlüyündən başlayıb noyabrın 2-ci ongünlüyünə, yəni 120 günə qədər davam edir. Eyni zamanda fenoloji müşahidələr nəticəsində məlum olmuşdur ki, Abşeron şəraitində hind xiyarının vegetasiya dövrü uzunluğu 180 günə qədərdir.

Cədvəl 1. Müqəddəs hind xiyarının əsas zoğunun istixana şəraitində böyümə dinamikası, sm-lə (2009-cu il)

Variantlar / Aylar	adi torpaq	qidalı torpaq (qum, meşə torpağı, yanmış peyin1:1:1)	torf
aprel	10,0±3,0	18±4,0	50,0±3,5
may	100,0±4,0	120,0±5,0	150,0±4,0
ümumi	110,0±4,0	138,0±5,0	200,0±4,0
iyun	80,0±3,0	90,0±4,0	100,0±2,0
ümumi	190,0±3,0	228,0±4,0	300,0±2,0
iyul	50,0±2,0	70,0±3,0	80,0±3,0
ümumi	240,0±2,0	298,0±3,0	38,0±3,0
avqust	30,0±3,5	60,0±3,0	70,0±5,0
ümumi	270,0±3,5	358,0±3,0	450,0±5,0
sentyabr	20,0±3,0	60,0±2,0	50,0±3,0
ümumi	290,0±3,0	418,0±2,0	500,0±3,0
oktyabr	8,0±1,5	25,0±2,0	30,0±2,0
ümumi	298,0±1,5	443,0±2,0	530,0±2,0
yekun	298,0±2,0	443,0±3,0	530,0±3,0

Cədvəl 2. Müqəddəs hind xiyarının əsas zoğunun çöl şəraitində böyümə dinamikası, sm-lə (2009-cu il)

Variantlar / Aylar	adi torpaq	qidalı torpaq (qum, meşə torpağı,yanmış peyin1:1:1)	torf
may	12,0±1,0	80,0±1,5	90,0±1,0
iyun	15,0±0,5	85,0±1,0	105,0±1,0
ümumi	27,0±0,5	165,0±1,0	195,0±1,0
iyul	20,0±0,5	90,0±1,0	107,0±0,5
ümumi	47,0±0,5	255,0±1,0	302,0±0,5
avqust	18,0±1,0	87,0±0,5	98,0±1,0
ümumi	65,0±1,0	342,0±0,5	400,0±1,0
sentyabr	16,0±1,5	55,0±1,0	55,0±1,0
ümumi	81,0±1,5	397,0±1,0	455,0±1,0
oktyabr	5,0±1,0	12,0±1,0	13,0±1,5
ümumi	86,0±1,0	409,0±1,0	468,0±1,5
yekun	86,0±0,5	409,0±1,0	468,0±1,5

Cədvəl 3. Hind xiyarının Abşeronda açıq şəraitdə fenologiyası

İllər	Səpin vaxtı	Ləpə yarpaqarın əmələ gəlməsi	İlk həqiqi yarpağın əmələ gəlməsi	Çiçəkləmə		Meyvə vermə		Meyvələr tam yetişməsi	Məhsulun sonu	Vegetasiyanın sonu	Vegetasiyanin uzunluğu
				Baş.	sonu	Baş.	sonu				
2008	25.IV	02.V	09.V	25.V	15.XI	05.VI	10.XI	30.VI	25.XI	30.XI	189
2009	25.IV	01.V	08.V	22.V	11.XI	02.VI	08.XI	25.VI	22.XI	26.XI	180
2010	25.IV	03.V	09.V	03.Vİ	18.XI	25.VI	10.XI	20.VII	27.XI	29.XI	180

Nəhayət, *Momordica charantia* L. növünün Abşeronda introduksiyası aşağıdakı nəticələrə gəlməyə əsas verir:

1. Növ Abşeronda yalnız qidalı torpaq mühitində və bol suvarma şəraitində müvəffəqiyyətlə becərilir.
2. İstiliyə və işığa çox tələbkardır, kölgə və yarımkölgə şəraitində çiçəkləmir.
3. Çox intensiv böyümə qabiliyyətinə malik olduğundan, becərildiyi səthi az vaxtda yaşıl kütlə ilə örtə bilir.
4. İlk soyuqlar düşənə qədər çiçəkləyib meyvə əmələ gətirdiyindən bütün vegetasiya ərzində, yəni 150 günə qədər bitki dekorativ görkəmdə olur ki, bu da bəzək – bağçılıqda böyük əhəmiyyət kəsb edən amillərdən biri hesab olunur.

ƏDƏBİYYAT

Александрова Н.С., Булыгин Н.Е., Ворошилов В.Р. и др. (1975) Методика фенологических наблюдений в ботанических садах СССР. М.: ГБС АН СССР: 28 с.

Васильченко И.Т. (1960) Всходы деревьев и кустарников. Определитель. М.: АН СССР: 301 с.

Молчанов А.А., Смирнов Б.В. (1967) Методики изучения природных древесных растений. М., Наука: 99 с.

Фирсова М.К. (1955) Методы исследования и оценки качества семян. М., Сельхозгиз: 375 с.

Ширяева С. (2006) «Экзотический овощ – момордика». Сад и огород **8:** 14-15

А.Д. Мехралыев

***Momordica charantia* L. и его интродукция на Апшероне**

Успешно выращиваемый на Апшероне только в условиях почвенной питательной среды и обильного полива, этот вид очень требовательный к теплу и свету, в тенистых и полутенистых условиях не цветет. Одновременно, имея очень интенсивный рост, способен в очень короткий срок покрыть возделываемую поверхность зеленной массой. Образовавшиеся до наступления первых холодов после цветения плоды в течение всего вегетационного периода, почти до 150 дней, придают растению декоративный вид, а это один из главных факторов в садово-парковых насаждениях.

A.D. Mehraliyev

***Momordica charantia* L. and its Introduction in Absheron**

At last, species of *Momordica charantia* L. allows coming to the following results introduction in the Absheron: The species is very pretender to only in the environment of nutritious land and condition of the rich water successfully to the warmth and light in the Absheron, does not blossom in the condition shade and half hade, to have ability for very intensive growth, in little time can cover cultivating surface with green mass. Till the first cold falls, during all vegetation, that is about 150 days because fruit formed having blossomed, plant is in the decorative appearance and this is considered one of the factors to assume great importance in the decoration and gardening.

AMEA-nın Xəbərləri (biologiya elmləri), cild 66, №1, səh. 178-183 (2011)

Etikadan Bioetikaya Doğru Yol: Yeni Düşüncə Tərzinə, Mərhəmətə və Xeyrxahlığa Çağırış

M.T. Abbasova, Ş.M. Hacıyev*, T.M. Ağayev
AMEA-nın A.İ. Qarayev adına Fiziologiya İnstitutu, Şərifzadə küç. 2, Bakı, AZ 1100,
**E-mail: azinphys@science.az*

İşin məqsədi antik dövrdən müasirliyə qədər fəlsəfədə və ictimai fikirdə etik baxışların təkamülü və əsas qayəsi. vahid elm sistemində etikanın yeri və əlaqələri, böyük mütəfəkkirlərin insanlarda və cəmiyyətdə görmək istədikləri əxlaqi-mənəvi dəyərlər, etik əsaslar üzərində bioetikanın meydana gəlməsini şərtləndirən səbəblər, bu yeni elmi-praktik sintezin mahiyyəti və inkişafı haqqında bilgiləri, nəzər-diqqətə çatdırmaqdır. Məqalədə bioetik konversiyasının müasir cəmiyyət üçün əhəmiyyəti, xeyrxahlıq və mərhəmət ideologiyasının hər bir kəs üçün vacibliyi, təcrübi biologiya və biotibb sahəsində aparılan və heyrət doğuran fundamental tədqiqatlarda bioetik prinsip və normaların gözlənilməsinin zəruriliyi məsələləri ön planda qoyulub.

Fəlsəfədə əxlaq, etika təlimlərinin ilk yaradıcıları antik dövrün böyük mütəfəkirləri – Qərbdə Sokrat, Hippokrat və Aristotel, Şərqdə isə Li Er, Konfusi və Budda sayılır (Иванов, 1988). Sokrat insan əxlaqı və mənəviyatı haqqında öz müdrik baxışları ilə tarixə düşüb. O, insanları, xüsusilə də cavanları kobud ehtiraslardan və şər əməllərdən qaçmağa, ədaləti, mərifəti, müdrikliyi, mərhəmət və xeyrxahlığı üstün tutmağa, qanuna pərəstişliyi və vətəndaşlıq borcunu layiqincə yerinə yetirməyə çağıran ilk böyük moralist, öndər əxlaq nəzəriyyəçisi olub. Sokratdan bu yana qədim yunanlar arasında böyük təbib Hippokratın adı da çox məşhur idi. Hippokrat tibb tarixində təbibliyin ilk etik kodeksi yaradıb. "Hippokratın andı" kimi şöhrət tapan bu tibbi kodeks müasir dövrdə də həkimlər üçün nümunəvi olan çox ciddi tezislər irəli sürmüşdü (Орлов, 2005).

Aristotel fəlsəfədə elmi etika qolunun əsl yaradıcılarından olub. O böyük filosof və universal mütəfəkkir kimi məşhurlaşanda etika haqqında düşüncələrini nəsilli təbiblər ailəsindən çıxmış və Makedoniya şahı yanında saray həkimi olmuş atası Nikomaxa həsr etdiyi "Nikomaxın etikası", adlı əsərində habelə "Böyük etika", "Evdemin etikası" traktatlarında əks etdirib. Aristotel etikanı mücərrəd bir formada təsvir etmirdi, onu cəmiyyət və insanlar xüsusilə də ağıl və kamala çatan insanlar, üçün gərəkli olan həyatı təlim, həkimlik peşəsi, xeyrxahlıqlar kodeksi ilə sıxı bağlı olan, əməli hərəkət və fəaliyyət üçün zəruri hesab edilən fundamental, məfkurəvi insan davranışını idarə edən qayda və qanunlar məcəlləsi kimi qələmə verirdi (Богомолов, 1985).

Sonrakı dövrlərdə elmlərin təsnifatlarını yaradan filosof və alimlər etikanı o vaxtlarda inkişaf edən və dəbdə olan əsas fənnlər sırasında yerləşdirirdi. Məsələn, filosof Gassendi məntiq və fizikadan sonra elmin klassifikasiyasına etikanı salmışdı. Kantın fəlsəfəsində etika xüsusi yer alır və onu çox yüksəyə qaldırır. Hegel elmləri məntiq, təbiətin fəlsəfəsi və ruhun fəlsəfəsi kimi bölmələrə ayırır, etikanı axırıncının onun tərkibinə daxil idi və mənəviyyat konsepsiyasını inkişaf etdirir (Гусейнов, 1985).

Elmlər sistemində etik biliklərin, yəni inkişafı və xüsusi əhəmiyyəti nəzəri və praktik, eləcə də ideoloji baxımından həm klassik, həm də müasir humanitar ədəbiyyatda geniş surətdə araşdırılıb, bəziləri etikanı-əxlaq haqqında elm-fəlsəfənin humanistik dəyər problematikası səviyyəsinə qaldırır, mənəvi münasibətləri öyrənən xüsusi ictimai şüur növü kimi xarakterizə edir. Cəmiyyətdə əxlaq insanın ən güclü fərdi və ictimai qüvvələrindən, ən dəyərli sosial keyfiyyətlərindən (xassələrindən) biri olduğu əksər etiklər üçün şübhəsiz və təkzib olunmaz idi. Etikada insanın insana münasibəti əsas predmet sayılırdı və belə düşünənlər indi az deyil. Onu da qeyd edirdilər ki, etik biliklərə sahib olmaq və həyatda onlardan bəhrələnmək bəşər tarixinin bu və ya digər dövründə əxlaqın keyfiyyət durumu-etik biliklərin obyektiv aspekti ilə müəyyənləşir. Əxlaqın tarixi inkişafı kimi, bir tərəfdən insan fərdlərinin bir-birilə içtimai bağlılığı digər tərəfdən onların fərdiliyi və şəxsiyyəti fonologiyası ilə qırılmaz əlaqədə görənlər də olub. Antik yunan fəlsəfəsinə qayıdanda görmək olar ki, o dövrdə idrak insandan daha çox təbiətə yönəlmişdi və onu yad bir aləm kimi deyil insan ilə həmahəng əlaqədə olan bir aləm kimi qəbul edilir, təbiəti, dünyanı dərk etmək insanı dərk etmək qədər əhəmiyyətli görünürdü. Sokratın "Özün özünü dərk et!" – kəlamı, Heraklitin "İnsan təbiətlə birgə olmalıdır" – kəlamı ilə necə də məntiqi bağlıdır.

İnsanın həyat tərzi (və ya insanın fərdiliyinin və ictimai mahiyyətinin birliyi) həmişə göstərici-nümunəvi dəyərlərdən biri sayılıb. Hələ Platon

